DÜNYA XƏBƏRLƏRİ

# Moskva Vaşinqtondan cavab gözləyir: 'ABŞ Ukraynanın hücumlarında iştirak edir'

indicə




Sergey Lavrov

Rusiya iddia edir ki, ABŞ Ukraynanın ona qarşı hücumlarında yaxından iştirak edir və məsələni Vaşinqton qarşısında qaldırıb. Bunu Rusiyanın xarici işlər naziri **Sergey Lavrov** bildirib. Onun sözlərinə görə, bu dəstəyə kəşfiyyat məlumatlarının ötürülməsi də daxildir.

Lavrov Dövlət Departamentinə bir sıra suallar göndərdiklərini, cavab gözlədiklərini vurğulayıb. Dediyinə görə, suallar sırasında "Rusiya ərazisinin dərinliklərində mülki hədəflərə zərbələrin təşkilində Birləşmiş Ştatların daha geniş iştirakı" məsələsi də var.

ABŞ tərəfi hələlik bu açıqlamaya münasibət bildirməyib.

Fevraldan bəri Ukrayna ilə bağlı sülh danışıqları keçirilməyib. ABŞ və İsrail İranla müharibəyə başlayandan Moskva ilə Kiyev arasında vasitəçilik səyləri dayanıb.

Lavrovun dediyinə görə, Rusiya prezidenti Vladimir Putin bir il əvvəlki sammitdə ABŞ prezidenti Donald Trampa bildirib ki, Moskva Vaşinqtonun sülh təkliflərini dəstəkləməyə hazırdır.

ABŞ dövlət katibi **Marko Rubio** isə sammitdə hər hansı razılaşmanın əldə olunduğunu təkzib etmişdi. O demişdi ki, əgər belə bir razılaşma olsaydı, müharibə artıq başa çatmış olardı.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur